2022.- 8 dekabr.- S.8.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



# İncəsənətin incə növü...

## Bu gün kağıza can verənlərin günüdür

*Aysu ABBASOVA*

8 dekabr Beynəlxalq Rəssamlar Günüdür. Bu gün 2007-ci ildə “Dünya Xalqları Sənəti” Beynəlxalq Assosiasiyası tərəfindən təsis edilib. Beynəlxalq Rəssamlar Günü təkcə peşəkarlar və sənət həvəskarları üçün xüsusi gün deyil. Bugünkü bayram, həm də bütün gözəllik, rəngarənglik, təbiətsevənlər üçün xüsusidir.

**Rəssamlıq nədir, necə yaranıb?**

Rəssamlıq peşəsi hələ min illər əvvəl meydana gəlib. Belə ki, ibtidai icma dövründən qədim insanlar daş, qaya üzərində ilk rəsm əsərlərini yaratmağa başlayıblar. Yaradılan təsvirlərin sehrli bir təsirə sahib olduğuna inanıblar. Orta əsrlərdə rəssamlığın əsas istiqamətləri ikon rəssamlığı, freska (suvağı qurumamış divarda sulu boyalarla işlənir) və mozaika yaranıb. İntibah dövründə isə bu gün də aktuallığını itirməyən portret janrı inkişaf etməyə başlayıb.

Rəssamlıq sənəti çox incə, maraq doğuran, insan ruhunu oxşayan gözəl bir sənət növüdür. Rəssamlıq insanın mənəvi aləmindəki daxili duyğularını cəmiyyətlə bölüşməyin ən maraqlı yoludur. Bəli, rəssamlıq dərin sənətdir, bu isə ciddi təxəyyül, istedad, əmək, səbir və mütaliə tələb edir.

Bizi əhatə edən ətraf aləmin gözəlliyi şair və yazıçını, bəstəkarı və rəssamı yaratmağa ruhlandırır. Ətrafda baş verən hadisələri və varlıqları təsvir etmək üçün yaxşı müşahidəçi olmaq lazımdır. Müşahidəçi ətrafa tamaşa edən insana deyilir. Rəssam isə müşahidə edərək sirli, sehrli təsvirlər yaradan bir insandır. Təsviri incəsənət əsərlərini yaradan rəssam müxtəlif materiallardan istifadə edir.



Bütün sənətkarlar kimi, rəssamlar da təbiətdən ilham alırlar. Onların əsərlərində payız mövzusunun xüsusi yeri var. Bu fəsil öz rəngarəngliyi ilə insanları cəlb edir. Rəssam payızı seyr edən zaman təbiətdə baş verənləri, insanların geyimlərini və hərəkətlərini müşahidə edir. Müşahidələri rəssama bütöv bir əsəri yaratmağa kömək edir. Təsvir zamanı obyektləri elə yerləşdirir ki, onlar bir-birini tamamlasın.

**Dünyada Azərbaycanı tanıdan rəssamlar...**

Müasir dünyanı nə iləsə təəccübləndirmək olduqca çətindir. Çünki artıq dünyanı heyrətləndirəcək çox az şey var, desək, yəqin ki, yanılmarıq. Təsviri incəsənət, rəssamların fırçasından çıxan əsərlər, həqiqətən də, tamaşaçıların marağını cəlb etməyə qadirdir. Azərbaycan təsviri incəsənət ustalarının çəkdiyi əsərlərin çox az hissəsi dünyada tanınıb, barmaqla sayılacaq qədər rəssamımızı dünya tanıyır.

Sənətşünaslar qeyd edir ki, Azərbaycanda tarixən ölkəmizi tanıtmağa qadir olan rəssamlar olub, sadəcə, onların dünya sənət okeanına çıxışları məhdud idi. Bununla belə, Azərbaycan rəssamları tam olaraq hələ dünyaya inteqrasiya etməyiblər. Bu gün dünya Azərbaycan rəssamları deyəndə daha çox Səttar Bəhlulzadənin bənzərsiz əsərlərini xatırlayır.

Sovet dövrü Azərbaycan rəssamlarının əksəriyyətinin o illərdə xarici ölkələrdə sərgiləri təşkil edilirdi. Bu rəssamlar Azərbaycan həyatını bu sərgilərdə ifadə edə bilirdi.

Azərbaycan rəssamlarının əsərlərinin dünyaya təqdim edilməsi incəsənət tariximizdə yeni hadisə olardı. Orta əsrlər Azərbaycan rəssamlarının çəkdiyi əsərlər, miniatürlər bütün dünyada məşhurdur. Azərbaycan rəssamlarının əl işləri qədim zamanlardan dünya səyyahlarını maraqlandırıb. Onlar əsl sənət inciləridir. Sadəcə, təbliğatları zamanında yüksək səviyyədə qurulmayıb.

Azərbaycan rəssamları həm çox savadlı, həm dünya tarixini yaxşı bilən, həm də istedada malik olan sənətkarlardır. Sovet dövründə Azərbaycan rəssamlarının işi dünyanın müxtəlif ölkələrində sərgilənirdi. Sovet dövrü Azərbaycan rəssamlarının müraciət etdiyi mövzular ancaq ölkə ilə məhdudlaşmırdı, dünyanın əksər xalqları, onların məişəti, həyat tərzi ilə bağlı dəyərli əsərlər yaradırdılar. Bu əsərlərin beynəlmiləl mahiyyəti də böyük idi. Bu gün dünya muzeylərində Azərbaycanın Sovet dövrü rəssamlarının əsərləri sərgilənir.

Sevindirici haldır ki, dövlətin bu sahəyə dəstəyi nəticəsində klassik Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgilər açılır, onların kataloqları çap olunur. Bundan başqa, müasir rəssamlar arasında da dünyaya çıxmağa iddialı olanlar var.

Son illər Azərbaycan təsviri incəsənətinin dünyada təbliğ edilməsi və onun müasir nümayəndələrinin tanıdılması üçün Heydər Əliyev Fondu da böyük işlər görür.

Fondun təşkilatçılığı ilə dünyanın müxtəlif ölkələrində rəsm sərgiləri açılır, rəssamlarımız tanıdılır.